Azərbaycan, № 38.- S.10.

20 fevral 2024-cü il

# Prezident İlham Əliyev münaqişələri həll edən liderdir

"Prezident İlham Əliyevin ənənəvi Münxen Təhlükəsizlik Konfransında iştirakı və bu çərçivədə keçirdiyi ikitərəfli görüşlər, müzakirə olunan məsələlər mövzu baxımından xeyli genişdir. İlk növbədə bu görüşlərin qarşı tərəfin xahişi və istəyi ilə təşkil olunması faktına diqqət yönəltmək gərəkdir. Belə xahiş və arzuların olması bir sıra səbəblərlə, eləcə də Prezident İlham Əliyevin beynəlxalq aləmdəki yüksək nüfuzu ilə bağlıdır".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat bildirib ki, konfransda iştirak edən ölkələrin rəhbərləri və ya nümayəndə heyətlərinin başçıları Azərbaycan Prezidenti ilə görüşmək, aktual məsələləri müzakirə etmək və ölkəmizlə əməkdaşlıq etmək istəyirlər: "Sirr deyil ki, Prezident İlham Əliyevin nüfuzu 44 günlük Vətən müharibəsindən və 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərindən sonra xeyli artıb və bu gün dünyanın heç bir siyasi liderinin həm ölkə daxilində, həm beynəlxalq aləmdə dövlət başçısı olaraq nüfuzu bu qədər yüksək deyil. Prezident İlham Əliyevlə görüşlərin təşkil edilməsində bir sıra ölkələrin maraqlı olmasının digər səbəbi isə onun dürüstlüyü, sözünün imzası qədər qüvvədə olması ilə əlaqədardır. Prezident seçildiyi ilk gündən etibarən İlham Əliyev nəyi vəd edibsə, onu da yerinə yetirib. Həmişə dürüst olması ilə bir dövlət başçısına xas olan ən yüksək keyfiyyəti nümayiş etdirib".



Musa Qasımlı qeyd edib ki, Azərbaycanın beynəlxalq nüfuzu yüksəkdir, qlobal aləmdə oynadığı rol əvəzedilməzdir: "Hamıya yaxşı məlumdur ki, Azərbaycan Prezidenti BMT-dən sonra üzvlərinin sayına görə ən böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrliyi dövründə qurumun fəaliyyətini canlandırıb, nüfuzunu artırıb. Azərbaycan həmçinin iqlim dəyişikliyi ilə bağlı müzakirələrdə xüsusi rol oynayan bir ölkədir. Bu il COP29-a ölkəmizin evsahibliyi etməsi də bundan xəbər verir. Eyni zamanda Azərbaycan Avropanın enerji təchizatında mühüm rola sahibdir".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev bu gün birləşdirici gücdür, münaqişələri həll edən, uzlaşma tapan liderdir: "Hazırkı mürəkkəb beynəlxalq şəraitdə isə buna böyük ehtiyac var. Münxendə keçirilən görüşlər, müzakirə edilən məsələlər göstərir ki, Azərbaycan dövlətinin xarici siyasəti artıq regional xarakter daşımır. Daha da genişlənərək qlobal məqsədlər güdür. Bu məqsədləri Prezident İlham Əliyev andiçmə mərasimində elan etdi. Onlar neokolonializmə qarşı mübarizə, iqlim dəyişiklikləri və sairdir. Azərbaycan ölkələrin böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, hər biri ilə bərabərhüquqlu münasibətlər qurmağa çalışır, heç kimin daxili işlərinə qarışmır və eyni zamanda hər hansı bir dövlətin onunla hökm dili ilə danışmasına, daxili işlərinə qarışmasına qəti şəkildə imkan vermir. Azərbaycanın belə açıq və işıqlı mövqeyi beynəlxalq nüfuzumuzu artıran amillərdən biridir".

Musa Qasımlı, həmçinin dövlət suverenliyimizin bütün ərazilərimizdə tam bərqərar edilməsindən sonra Azərbaycanın tarixində yeni bir mərhələnin başladığını qeyd edib. Deputat söyləyib ki, bu mərhələnin müəyyən xüsusiyyətləri var: "Fikrimcə, ən başlıcası ondan ibarətdir ki, Azərbaycan orta güc dövləti kimi dünya siyasətində böyük nüfuza malikdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 30 il keçməsinə baxmayaraq, güclü dövlət, iqtisadiyyat və qüdrətli ordu formalaşdırılıb. Təsadüfi deyil ki, Azərbaycan Ordusu dünyanın 60 güclü ordusu sırasındadır. Bundan başqa, ölkə iqtisadiyyatı dayanıqlıdır. Heç şübhəsiz, bütün bu məsələlərdə Prezident İlham Əliyevin əməyi əvəzsizdir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***